**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NAZİLƏ ŞAHBAZ qızı ŞAHBAZOVA-EMİNBƏYLİ**

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN NİKAH-AİLƏ MÜNASİBƏTLƏRİNƏ HAZIRLANMASI ÜZRƏ İŞİN PEDAQOJİ ƏSASLARI

**5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2018**

*Dissertasiya işi Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Fərahim Balakişi oğlu Sadıqov**
pedaqogika üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **Şəhla Qasım qızı Əliyeva**
pedaqogika üzrə elmlər doktoru, dosent

**Piralı Behbudalı oğlu Əliyev**
pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar müəllim

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrası**

**Müdafiə 20 fevral 2018-ci il tarixdə saat $16^{00}$ da Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən FD 02.061 Dissertasiya Şurasının iclasında (Kiçik akt zalında) keçiriləcəkdir.**

**Ünvan: Az -1010, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68**

**Dissertasiya işi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana–İnformasiya Mərkəzində tanış olmaq mümkündür.**

**Avtoreferat «___» __________ 2018-ci ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının**
**elmi katibi:** **r.ü.e.d.,dos.R.Z.Hümbətəliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı**. Azərbaycanda tarixən ailəyə, ailə münasibətlərinə, gənc nəslin ailə həyatına hazırlanması məsələlərinə ciddi fikir verilmişdir. Ailənin möhkəmləndirilməsi cəmiyyətin, yaşlı nəslin diqqət mərkəzində dayanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Ailə və uşaq problemləri çox böyük əhəmiyyət daşıyır. Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri əslində bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

Xalqımızın gözəl və zəngin ailə adət və ənənələri vardır. Bu adət və ənənələr özündə qarşılıqlı etibar və sədaqət, qarşılıqlı məhəbbət, qarşılıqlı anlaşma, valideynə, böyüyə hörmət, tolerantlıq kimi zəngin və çoxşaxəli məsələləri özündə birləşdirir.

Respublikamızın ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zərurətini, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hisslərinə əsasən bərqərar olmasını, ailə üzvlərinin ailənin qarşısında borc və məsuliyyətini, ər-arvadın, valideynlərin hüquq və vəzifələrinin yerinə yetirilməsini nəzərdə tutur. Azərbaycan hökumətinin siyasətinin mərkəzində vətəndaş və onun sosial rifahı dayanır.

Ailə institutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclən-məsinə və inkişafına şərait yaradır**.** Azərbaycan əhalisinin sayı 9 milyon 600 mindən artıqdır. Hazırda ölkəmizdə ailələrin sayı 2 milyondan çoxdur**.** Hər il 80 min ailə meydana gəlir.

Hələ ötən əsrin 90-cı illərində ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə bir sıra əhəmiyyətli beynəlxalq müqavilələrə və qanunlara imza atılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev həmin siyasətin daha da gücləndirilməsi və uğurla həyata keçirilməsi üçün bir çox layihələrin icrası ilə əlaqədar səmərəli tədbirlər görmüş və görməkdədir.

Ölkəmizdə qadınların, kişilərin və uşaqların, bütövlükdə ailənin, mənafeyinə yönələn Azərbaycan Respublikasının Ailə Məcəlləsi, "Uşaq hüquqları haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "Əlilliyin və uşaqların

sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında" və başqa qanunlar qəbul olunmuşdur.

Azərbaycan hökuməti "Qadınlara qarşı zorakılığa yox deyək", "Azərbaycanda erkən nikahın vəziyyətinin təhlili", "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə", "Məişət zorakılığının qarşısının alınması", "Məcburi köçkünlər və sığınacaq axtaran şəxslər (qaçqınlar) arasında cinsi zorakılığın aradan qaldırılması" layihələri, "Küçə uşaqlarının vəziyyətinin təhlili", "Azərbaycanda yeni doğulmuş uşaqların qeydiyyatı ilə bağlı vəziyyətin təhlili", "Azərbaycanda ailə və nikah institutu: sosioloji təhlil" mövzularında analitik hesabat hazırlamışdır.

Reallaşan həmin layihələr və dövlət proqramları özünün müsbət nəticələrini verməkdədir. Belə ki, ana və uşaq ölümünün, erkən nikah və uşaqlara qarşı zorakılıq faktlarının azalması, küçə uşaqları probleminin həllinə istiqamətlənən tədbirlər dövlətin uğurlu siyasətinin nəticəsi kimi qeyd oluna bilər.

Görülən işlərin genişləndirilməsi məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilmişdir. Bu Konsepsiyaya əsasən, "Azərbaycan ailəsi Strategiyası"nın, Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Milli Fəaliyyət Planının, "Uşaq Strategiyası"nın, "Ailə psixoloqu" institutunun hazırlanması planlaşdırılır.

Ailə, qadın və uşaq problemlərinin həllində, ailənin möhkəmləndirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səmərəli fəaliyyət göstərir. Dövlət Komitəsi nəzdində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi vardır.

Gənc ailələrin güzəştli şərtlərlə evlərlə təmin edilməsi, tibbi və sosial müdafiənin yüksəldilməsi, ölkə başçısı İlham Əliyevin və birinci vitse prezident Mehriban xanım Əliyevanın hər bir vətəndaşa, ailəyə, uşağa hərtərəfli diqqəti və qayğısı ilk növbədə hər bir ailənin möhkəmləndirilməsinə səbəb olur.

Aztəminatlı ailələrə ünvanlı sosial yardımların, həmçinin gənc ailələrə ipoteka kreditlərinin verilməsi ailə institutuna göstərilən böyük qayğıların nəticəsində ailə quran gənclərin sayı artır, boşanmalar da getdikcə azalır.

Respublikamızda təhsilalanların ailə həyatına, nikah-ailə münasibətlərinə hazırlığı ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır. Həmin tədqiqatlar arasında A.N. Abbasovun 1995-ci ildə müdafiə etdiyi "Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi" mövzusunda dissertasiya işi diqqəti xüsusilə cəlb edir. Pedaqoji aspektdə E.Ə. Mollayeva yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemini; T.V. Rüstəmli V-IX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yollarını (Naxçıvan Muxtar Respublikasının materialları əsasında) tədqiq etmişlər.

Psixoloji aspektdə də tədqiqatlar vardır. Belə ki, K. Şiriyeva Cənub zonasının materialları əsasında ailə münaqişələrinin psixoloji təhlili problemlərini; L.A. Əliyeva tələbələrin ailə həyatına hazırlanmasının psixoloji xüsusiyyətlərini; H.N. Dadaşzadə İranda ailə ziddiyyətləri və onların sosial-psixoloji təhlilini aparmış; Z.N. Nəsrullayeva ailədaxili münasibətlər və şəxsiyyətin formalaşmasına onun təsirini; Üfüqi F.Ş. Pur gənc ailələrdə sosial persepsiyanin ailə-nikah münasibətlərinə təsirini; S.V. Orucova Azərbaycan ailəsində oğlan-qız tipli münasibətlərin etnopsixoloji xüsusiyyətlərini; A.A. Sousan İran İslam Respublikasında gənclərin ailə həyatına hazırlanmasının sosial-psixoloji problemlərini; R.M. Qarayeva yeniyetmə qızların etnopsixoloji xüsusiyyətlərini; B.Ə. Mohəmməd Ailədaxili münasibətlərin yeniyetmələrin şəxsiyyətinin formalaşmasına təsirinin müqayisəli təhlilini (Baki-Təbriz) tədqiqata cəlb etmişlər.

N.Quliyevanın "Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti" monoqrafiyası və dos. L.M. Qurbanovanın "Ailənin psixoloji problemləri və həlli yolları" kitabı da dissertasiyada nəzərdən keçirdiyimiz problemlə bilavasitə bağlıdır.

Respublikamızda böyüməkdə olan nəslin ailə həyatına hazırlanması istiqamətində Ə.Ə. Əlizadə və Akif N Abbasovun xidmətləri böyükdür. Professorlar hələ ötən əsrin səksəninci illərində məqsədyönlü, fasiləsiz və sistemli şəkildə ailə tərbiyəsi, şagirdlərin ailə həyatına mənəvi, psixoloji, iqtisadi, tibbi, hüquqi, gigiyenik, sosial baxımdan hazırlanması problemlərin geniş şəkildə araşdırmışlar. Onlar 1986-1991-ci illərdə IX siniflər üçün "Ailə həyatının etika və psixologiyası" kursunun proqramını, "Ailə", "Ailə həyatının etika və psixologiyası", "Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat" və s. bu kimi dərslik və dərs vəsaitlərini

nəşr etdirmişlər. 1991-ci ildə Azərbaycan məktəblərinin rus bölmələrinə "Ailə" dərsliyinin rus dilində olan variantı təqdim edilmişdir.

MDB məkanında L.İ. Antonova, R.İ. Bayçorova, E.İ. Zriyneva , N.İ. Laşşu, N.İ. Novikova, P.A. Reşertov, M. Sobçak - yuxarı sinif şagirdlərinin; V.A. Boyko, S.Y. Komova., F.Y. Koçkarova, T.V. Nosakova, S.D. Otboyeva, N.Q. Xramova, R.S. Umerqalin, T.A. Fyodorova – tələbələrin; R.D. Fayzulin – yeniyetmələrin ailə həyatına hazırlanmasının müxtəlif aspektlərinə aid dissertasiyalar müdafiə etmişlər.

"Nikaha hazırlıq" anlayışı möhkəm ailənin yaradılmasında əhəmiyyətli şərt kimi nikaha daxil olanların psixofizioloji yetkinliyini, nikah yaşını, nikaha daxil olmağa sosial-iqtisadi hazırlığı, ər-arvadlıq harmoniyasının və möhkəm ailənin təməli kimi nikaha girənlərin etik-psixoloji hazırlığını özündə birləşdirir (İ.V. Qrebennikov).

Dissertasiyada nəzərdən keçirilən problemin aktuallığını şərtləndirən amillər bunlardır:

Birinci, dövlət ailə problemlərinə diqqət yetirir, onun möhkəmləndirməsi qayğısına qalır. Bu, xüsusi tədqiqatın aparılmasını, yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin pedaqoji əsasların aydınlıq gətirilməsini zərurətə çevirir.

İkincisi, bəzi şəxslər, xüsusən gənclərdə məhəbbət, nikah və ailə, ailə münasibətləri məsələlərinə ciddi yanaşmırlar. Belə mövqeyin neytrallaşdırılmasına ehtiyac vardır.

Üçüncüsü, yuxarı sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına hazırlanması sahəsində ailədə və məktəbdə müəyyən işlər görülür. Valideynlər də, müəllimlər də, cəmiyyət də, dövlət də belə bir hazırlığın həyata keçirilməsində maraqlıdır.

Dördüncüsü, ölkəmizdə gənc oğlan və qızlar arasında nikah bağlanması halları artsa da, boşanma halları da çoxalmaqda davam edir.

Beşincisi, yuxarı sinif şagirdlərinin, onların valideynlərinin, həmçinin müəllimlərinin məhəbbət, nikah, ailə, ailə münasibətləri sahəsində maariflənməsinə ehtiyac vardır.

**Tədqiqatın obyekti** - yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması prosesidir.

**Tədqiqatın predmetini** - yuxarı sinif şagirdlərinin ailə-nikah münasibətlərinə hazırlanması üzrə işin pedaqoji əsasları təşkil edir.

**Tədqiqatın məqsədi.** Yuxarı sinif şagirdlərinin ailə-nikah münasibətlərinə hazırlanmasının nəzəri-metodoloji əsaslarını müəyyən-

ləşdirməkdən və onun həyata keçirilməsinin pedaqoji problemlərini, təkmilləşdirilməsinin şərtlərini əsaslandırmaqdan ibarətdir.

**Tədqiqatın elmi yeniliyi:**

1. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə iş nəzəri cəhətdən əsaslandırılıb və eksperimentlə təsdiq edilib.

2. Təbiətəmüvafiqlik, təlimin, təhsilin və inkişafın inteqrsiyası, mədəniyyətəmüvafiqlik, nəzəri biliklərin və praktik fəaliyyətin tamlığı, fərdiləşdirilməsi və qarşılıqlı əlaqəsi şəraitində böyük məktəb yaşlı şagirdlərin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin səmərəli formaları və metodları aşkara çıxarılaraq eksperiment vasitəsilə təsdiq edilmişdir.

3. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin meyarları, göstəriciləri və səviyyələri müəyyənləşdirilmişdir.

4. Ümumtəhsil məktəblərinin X-XI siniflərində təhsil alan oğlanların və qızların nikah-ailə münasibətlərinə hazırlanmasının səmərəliliyini təmin edən pedaqoji şərtlər kompleksi işlənib hazırlanmış və aprobasiyadan keçirilmişdir.

**Tədqiqatın fərziyyəsi:** Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması aşağıdakı şərtlər daxilində səmərəli olar:

1. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanmasının məzmunu mədəni və sosial mühitin regional və etnik xüsusiyyətlərini, ailə-nikah ənənələrinin zəngin mənəvi-etik imkanlarını nəzərə almaqla işlənib hazırlanır;

2. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsinə, ailənin və qohumluq əlaqələrinin möhkəmləndirilməsinə və sağlam həyat tərzinin təbliğinə yönəlmiş məktəb, ailə və ictimaiyyətin qarşılıqlı əlaqəsi vasitəsilə həyata keçirilir.

**Tədqiqatın** məqsədinə, obyektinə, predmetinə və fərziyyəsinə əsasən **vəzifələr** müəyyənləşdirilmişdir:

1.Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin nəzəri əsaslarını müəyyənləşdirmək. Bu məqsədlə:

-məktəblilərin nikah-ailə münasibətlərinə hazırlanmasının əhəmiyyətini aydınlaşdırmaq;

-böyük məktəb yaşlı şagirdlərin nikah-ailə münasibətlərinə *hüquqi* baxımdan hazırlanması imkanlarını araşdırmaq;

-şagirdlərin nikah-ailə münasibətlərinə *mənəvi* cəhətdən hazırlanması imkanlarını öyrənmək;

-X-XI sinif şagirdlərinin nikah-ailə münasibətlərinə *psixoloji* baxımdan hazırlanması imkanlarını müəyyən etmək;

-məktəbli oğlan və qızların nikah-ailə münasibətlərinə *tibbi* və *gigiyenik* baxımdan hazırlanması imkanlarını araşdırmaq.

2.Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin təcrübi məsələlərini nəzərdən keçirmək. Bu məqsədlə:

-təlim prosesində yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin imkanları və həyata keçirilməsi yollarını aydınlaşdırmaq;

-sinifdənxaric tədbirlər zamanda yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin imkanları və həyata keçirilməsi yollarını tədqiqata cəlb etmək;

- ailədə yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması məsələlərini araşdırmaq;

yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin səmərəlilik göstəricilərini diqqət mərkəzinə gətirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Araşdırmaların gedişində aşağıdakı **tədqiqat metodlarından** istifadə olunmuşdur: nəzəri təhlil və tərkib, pedaqoji müşahidə, pedaqoji müsahibə, sənədlərin öyrənilməsi, riyazi-statistik metodlar, pedaqoji eksperiment.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Ailə hüququ, məhəbbət, nikah, ailə, ailə münasibətləri, ər və arvadın, valideyn və uşaqların hüquqları və vəzifələri ilə bağlı böyük məktəb yaşlı şagirdlər arasında aparılan işin mahiyyəti, məqsəd və vəzifələri, məzmunu, xüsusiyyətləri, göstəriciləri, məktəblilərin gələcək müstəqil ailə həyatına hazırlanmasının istiqamətləri müəyyənləşdirilmişdir. Əsərdə irəli sürülən elmi ideyalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, X-XI sinif şagirdlərində gələcək müstəqil ailə həyatı üçün səciyyəvi sayıla biləcək zəruri

keyfiyyətlərin formalaşdırılması işinin elmi əsaslar üzərində qurulmasını təmin edəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti:** Problemlə bağlı iş sistemi, əsas elmi ideyalar, tədqiqatın nəticələri yuxarı sinif şagirdləri ilə nikah-ailə münasibətlərinə dair məqsədyönlü, sistemli və ardıcıl işləri aparmaqda, onların müstəqil ailə həyatına hazırlanmasında müəllimlərə, sinif və məktəb rəhbərlərinə, məktəb ictimai təşkilatlarının nümayəndələrinə, tərbiyə işləri üzrə direktor müavinlərinə, valideynlərə kömək göstərəcəkdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır**:

1. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə yüksək səviyyədə hazırlanması imkanları onların arasında aparılan məqsədyönlü, sistemli və fasiləsiz işdən səviyyəsindən çox asılıdır.

2. Təlim prosesində - ədəbiyyat, həmçinin İnsan və cəmiyyət fənləri üzrə dərslərdə X-XI sinif şagirdləri ilə nikah-ailə münasibətilə bağlı aparılan işlər səmərəli nəticələnir.

3. Nikah-ailə münasibətlərinə dair təlim prosesində aparılan işlərin sinifdənxaric tədbirlərdə davam etdirilməsi vacibdir.

4. Yuxarı sinif şagirdlərinə nikah-ailə münasibətlərinə dair zəruri məlumatların verilməsi onların gələcək müstəqil ailə həyatına uğurla hazırlanması üçün mühüm vasitə olur. Fənn müəlliminin fəaliyyəti o zaman səmərəli olur ki, o, məktəblilərin nikah-ailə münasibətlərinə hazırlanması imkanlardan həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə istifadə etməyi bacarsın. Bu sahədə sinif və məktəb rəhbərinin, məktəb psixoloqunun və gənclər təşkilatlarının köməyi zəruri bilinir.

**Tədqiqatın nəticələrinin tətbiqi**. Təklif edilən iş sistemi Masallının 1 və 2, Cəlilabadın 4 və 5, Lənkəranın 5, Astaranın 2 nömrəli məktəblərində tətbiq olunmuşdur. Dissertasiyada nəzərdən keçirilən problemlə bağlı 5 məqalə (o cümlədən 1 məqalə xarici ölkədə) nəşr olunmuşdur.

İddiaçı beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 10 yarımfəsli özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanır, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, alınan nəticələr haqqında yığcam məlumat verilir.

Dissertasiyanın "**Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin nəzəri əsasları"** adlanan birinci fəsil beş yarımfəsildən ibarətdir. "*Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanmasının əhəmiyyəti* " adlı birinci yarımfəsildə göstərilir ki, ölkəmizdə insan, vətəndaş amili diqqət mərkəzindədir. Dövlətimiz möhkəmdir, əzəmətlidir, sarsılmazdır. Fəqət onun möhkəmliyi bizim hər birimizdən, özümüzün, uşaqlarımızın tərbiyəsindən, davranışından, məsuliyyətimizin dərəcəsindən, vətənpərvərliyimizdən, ailələrimizin möhkəmliyindən, bizim dövlətə sədaqətimizdən, onun bu günü və gələcəyi üçün necə qayğı göstərməyimizdən də xeyli dərəcədə asılıdır. Ailələr nə qədər möhkəm olarlarsa, cəmiyyətimiz də bir o qədər möhkəm olar. Ona görə də valideynlər, məktəb Vətənə sədaqətli oğul və qızlar, vətəndaşlar yetişdirməlidirlər. Ailə tərbiyəsi, kişi və qadın, ər və arvad, valideyn-övlad münasibətləri düzgün qurulmalıdır.

Ailədə oğlan və qız tərbiyəsinin özünəməxsus xüsusiyyətləri var. Oğlan daha çox – ata, qız isə ana nümunəsində böyüyür. Oğlan gələcəkdə atası kimi bir kişi, bir ər olmağı, qız da anası kimi bir qadın, bir arvad olmaq istəyir. Onlar kimi ata-ana olmağı arzulayırlar.

Ailə fərdlərin bir-birlərinə bəxş etdiyi məhəbbət və dəyərin çox önəmli ictimai və sosial formasıdır. Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı kömək və hörmət əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı naminə birlikdə hərəkət etməli, övladlarının təhsili, tərbiyəsi və inkişafı üçün zəruri şərait yaratmalı və onların sağlamlığına qayğı göstərməlidir. Yuxarı sinif şagirdlərində ata-anaya hörmət hisslərini qüvvətləndirməli, valideynlər ailənin şərəfini qorumaqla bərabər övladlarında da ailə qarşısında cavabdehlik hisslərini inkişaf etdirməlidirlər. Oğul və qızlarının gələcək ailə həyatı üçün bu, son dərəcə vacibdir. Yüngülxasiyyətlilik, yelbeyinlik, qeyri-ciddilik, qeybətçilik, boşboğazlıq, sədaqətsizlik, yalançılıq, ailə həyatı üçün arzuolunmazdır.

Övladlarının taleyinə biganə qalan, öz davranış və rəftarları ilə yaratdıqları ailəni uğursuz edən kişi və qadınlar, ər və arvadlar övladlarına

da pis nümunə olurlar. Qadın qızlarını ev işlərinə, evdarlığa, uşaqlara qulluq göstərməyə, ərinin qayğısına qalmağa öyrətməlidir.

Ailə ilə yanaşı, məktəb də yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə uğurla hazırlanmalarında son dərəcə mühüm rol oynayır. Ailədə ata-analar, məktəbdə pedaqoji kollektivin üzvləri yuxarı sinif şagirdləri arasında nikah-ailə münasibətlərinə hazırlıq üzrə işlər apararkən həmin yaş dövrünün xüsusiyyətlərini nəzərə almalıdırlar.

Məktəbdə yuxarı sinif şagirdləri ilə nikah-ailə münasibətləri üzrə sistemli, məqsədyönlü və fasiləsiz işi bir tərəfdən, təlim prosesində - ayrı-ayrı fənlərin tədrisi gedişində, digər tərəfdən, sinifdənxaric tədbirləri həyata keçirməklə aparırlar. Bu sahədə müəllimin şəxsiyyəti, nüfuzu, savadı, davranış və rəftarının xarakteri mühüm əhəmiyyətə malik olur.

*"Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hüquqi baxımdan hazırlanması"* adlı ikinci yarımfəsldə qeyd olunur ki, yuxarı sinif şagirdlərinin müstəqil ailə həyatına, gələcək uşaqlarının tərbiyəsi işinə hazırlanması eyni zamanda onların nikah-ailə münasibətlərinə hüquqi baxımdan hazırlanmasını tələbata çevirir.

Sosiologiyada ailə dedikdə, nikaha, qohumluğa, uşaqları tərbiyə etməyə əsaslanan insanların ümumi həyatı və mənafeləri, qarşılıqlı qayğıları ilə səciyyələnən ittifaqı anlaşılır. Hüquqi mənada isə, ailə özündə hüquqi əlaqəni nəzərdə tutur. Ailə üzvlərinin hüquq və vəzifələri əsas götürülür.

Qanunvericilikdə ailə münasibətlərinin şərti olaraq dörd başlıca qrupuna diqqət yönəldilir. Bu haqda yuxarı sinif şagirdlərinə məlumatın verilməsi məsləhətdir. Onlar belə izahat nəticəsində öyrənirlər ki nikahın bağlanması və ona xitam verilməsi, nikahın etibarsız sayılması , birinci qrup münasibətləri əhatə edir. Münasibətlərdə bu qrup nikah münasibətləri adlanır.

Ər-arvadın əmlakının hüquqi rejimi, onların mülkiyyətinin müqavilə rejimi, öhdəlikləri üzrə məsuliyyəti ikinci qrup münasibətlərə daxildir.

Şagirdlərə məlum olur ki, valideynlərini və uşaqların hüquq və vəzifələri və ailə üzvlərinin öhdəlikləri üçüncü qrup münasibətləri təşkil edir. Dördüncü qrup münasibətlərə isə, valideyn himayəsindən kənarda qalan uşaqların övladlığa götürülmə, qəyyumluq və himayə, onların başqa tərbiyə formaları aiddir.

Ər-arvad arasında ailə hüquq münasibətləri nikahın qeydə alınması nəticəsində əmələ gəlir. Bu münasibətlər şəxsi və əmlak xarakterli münasibətlərə bölünür.

Azərbaycan Respublikasının Ailə Məcəlləsi valideynlərlə uşaqlar arasında əmələ gələn hüquq münasibətləri də tənzim edir. Bu hüquq münasibətlər, adətən iki qrupa bölünür: şəxsi və əmlak hüquq münasibətləri.

Ailədə və məktəbdə yuxarı sinif şagirdlərini nikah-ailə münasibətlərinə hazırlanması zamanı onların ailə hüququ məsələləri ilə tanış olmaları vacibdir. Bu sahədə, təbii ki, valideynlər və müəllimlərin rolu böyükdür. İlk növbədə onların özləri ailə hüququ məsələlərinə bələd olmalıdırlar ki, bu istiqamətdə məktəblilərlə iş apara bilsinlər. müəllimlərin və ata-analarının, ailənin digər yaşlı üzvlərinin məqsədyönlü və sistemli maarifləndirici fəaliyyət nəticəsində X-XI sinif şagirdlərinə məlum olur ki, ailə hüquq ictimai münasibətlərin konkret bir növünü – ailə münasibətlərini, başqa sözlə nikah faktından yaranan və ailəyə aid olan münasibətləri tənzim edir. Şagirdlərə aydınlaşdırılır ki, ailə hüququnun predmetini ailənin özü deyil, ailə üzvləri arasında mövcud olan münasibətlər (ailə münasibətləri) təşkil edir.

Hazırda kolleclərdə və Gəncə Dövlət Universitetinin magistratura pilləsində "Milli əxlaq və ailə etikası" fənni seçmə yolla tədris olunur. Həmin kursların tədris proqramı və dərslikləri də prof. A.N. Abbasov tərəfindən hazırlanmışdır. Deməli, nəinki ümumtəhsil məktəblərində şagirdlərin, habelə kollec və ali məktəblərdə də tələbələrin ailə həyatına, nikah-ailə münasibətlərinə hazırlanması istiqamətində məqsədyönlü işlər görülür. Təlim prosesi ilə yanaşı sinifdənxaric və auditoriyadankənar tədbirlərdə də bu məsələlərə fikir verilir.

Mənbələrə nikah ailənin hüquqi əsası kimi nəzərdən keçirilir. Ona görə də yuxarı sinif şagirdlərinə nikahın bağlanma qaydaları və şərtləri; həmçinin nikah yaşı ilə; nikahın bağlanmasına mane olan hallarla tanış olmaları vacibdir.

Beləliklə, yuxarı sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına, ailə-nikah münasibətlərinə hazırlanmasının səmərəlilik göstəricilərindən biri onların hüquqi baxımdan bu işə necə hazırlanmalarından çox asılıdır.

Fəslin üçüncü yarımfəslində ("*Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə mənəvi cəhətdən hazırlanması"*) diqqət yetirilən məsələlər bunlardır. Cəmiyyətin mənəvi həyatı ailələrdən xeyli dərəcədə

asılı olur. Bu mənada dövlət də marağındadır ki, hər bir ailə möhkəm və xoşbəxt olsun, uşaqlar düzgün tərbiyələnsinlər. Ailə dövlətin himayəsindədir. Müasir günümüzdə cəmiyyətdə və ailədə mənəvi münasibətlərin yeni tipi təşəkkül tapıb. `Yaxşı tərbiyə görmüş oğlanlar və qızlar gələcəkdə təhsil alacaq, müxtəlif vəzifələr daşıyacaqlar. Əxlaqi baxımdan saf, fiziki cəhətdən sağlam əqidəcə səbatlı insanlar cəmiyyəti irəlilədə bilərlər. Bu mənada cəmiyyətin dayaqları da möhkəm olar.

Hazırda layiqli, ləyaqətli vətəndaş yetişdirmək ailənin, tipindən asılı olmayaraq, məktəbin mühüm vəzifələrindən biridir. Həmin vəzifələr sırasında, məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanmaları önəmli yer tutur. Bu məsələ hazırkı mərhələdə xüsusi aktuallıq daşıyır. Bu heç də təsadüfi deyildir. Övladının uğurlu nikahda, xoşbəxt ailə şəraitində yaşaması hər bir ata və ananın ən böyük arzusudur. Oğul və qızının ailə həyatında özünü xoşbəxt hiss etməsi valideyni sevindirir.

Ailənin hər bir üzvü ailə qarşısında mənəvi borc və məsuliyyət daşıyır. Kişi öz həyat yoldaşına münasibətdə həssas, ədalətli, qayğıkeş, ürəyiyanan olmalıdır.

Ailədə qadının da öz mənəvi məsuliyyəti və mənəvi borcu vardır. Bu borc və məsuliyyət bir həyat yoldaşı (arvad) və analıq vəzifələrindən irəli gəlir.

Ailədəki qarşılıqlı anlaşma və səmimiyyət, ər və arvadın qarşılıqlı sevgisi, bir-birinin sevincinə, kədərinə laqeyd olmaması, bir-birinin sağlamlığına qayğı ilə yanaşması, qarşılıqlı yardım, öz övladlarının təlim və tərbiyəsi sahəsində yorulmaz əməkləri, ata-ana və uşaqlar arasında qarşılıqlı anlamanın olması, oğul və qızlarının öz valideynlərini sevmələri və onlara hörməti, ailənin şərəf və ləyaqətini və valideynlərinin nüfuzunu qorumaları ailənin mənəvi əsaslarını təşkil edir. Hər bir şəxs öz ailəsinin şərəf və ləyaqətini müdafiə etməli, ailəsinin nümunəvi olmasına çalışmalıdır.

Yuxarı sinif şagirdlərinin ailə-nikah münasibətlərinə hazırlanmaları gələcək ailələrdə ixtilafların və boşanmaların qarşısını alır, baş qaldıracaq mübahisələrin tərəflərin bir-birinə güzəştə getməsi, mübahisə mədəniyyətinə yiyələnməsi, müsbət ailələr nümunəsində maariflənmələri yolu ilə, “Ailə Məcəlləsi” ilə tanış olmaqla qaldırılacağına təminat verir.

Məsələnin başqa bir tərəfi isə şagirdlərin əxlaqının saflaşdırılması, mənəviyyatının zənginləşdirilməsi ilə bağlıdır. Məktəblilər kiçik yaşlarından böyüyə hörmət, yoldaşlıq və dostluq, prinsipiallıq, ata-anaya, Vətənə, bacı və qardaşlarına məhəbbət ruhunda tərbiyə olunmalıdırlar. Onlarda nəzakətlilik, mərifət, başqasının sevincinə və kədərinə şərik olmaq, mehriban, səmimi, doğrucul, qayğıkeş, xeyirxah olmaq kimi mənəvi keyfiyyətlərə yiyələnməlidirlər. Bütün bunlar bir tərəfdən bir ölkə vətəndaşları kimi, digər tərəfdən gələcək müstəqil ailə həyatında şagirdlərə lazım olacaqdır. Belə halda onlar şəxsiyyətlərarası münasibətləri düzgün quracaq, yaxşı övladlar tərbiyə edəcəklər.

Nikah-ailə münasibətlərinə hazırlıq bütün yaş dövrlərində aparılmalıdır. Ancaq yuxarı siniflərdə və ali məktəblərdə bu istiqamətdəki iş daha sistemli, məqsədyönlü və fasiləsiz xarakter almalıdır. Çünki böyük məktəb yaşında uşaqlar müstəqil həyatın astanasındadırlar.

Ailə həyatına hazırlıq zamanı aşağıdakı istiqamətlər əsas götürülməlidir: uşaqların mənəvi, hüquqi, psixoloji, tibbi, gigiyenik baxımdan nikah-ailə münasibətlərinə hazırlanması. Yuxarı sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına hazırlanmalarında məktəb və ailənin səyləri əlaqələndirilməlidir. Tərbiyənin məqsədaydınlığı, tələblərdə vahidlik, hörmət və tələbkarlıq, yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması, sistemlilik və ardıcıllıq, tərbiyədə müsbət nümunələrdən istifadə, milli adət və ənənələrimizdən faydalanmaq və s prinsiplərindən; inandırma, alışdırma, şəxsi nümunə, rəğbətləndirmə və cəzalandırma kimi metodlarından istifadə olunmalıdır.

Dünyada, o cümlədən respublikamızda da boşanmaların sayının artması digər səbəblərlə yanaşı, həm də böyüyən nəslin, gənclərin ailə həyatına, nikah-ailə münasibətlərinə lazımi səviyyədə hazırlanmadıqlarını göstərir. Odur ki, ailədə valideynlər, məktəbdə müəllimlər, ictimai təşkilatlar, uşaq birliyi rəhbəri, məktəb psixoloqu, gənclər təşkilatı, valideyn komitəsi, məktəb rəhbərləri, o cümlədən direktorun tərbiyə işləri üzrə müavini öz səylərini məktəblilərin nikah-ailə münasibətlərinə uğurla hazırlanmalarına yönəltməlidirlər.

Qız, oğlan hələ kiçik yaşlarından əməyə, ev işlərinə alışdırılmalıdırlar ki, müstəqil ailə həyatında bu sahədə çətinliklərlə qarşılaşmasınlar.

"*Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə psixoloji baxımdan hazırlanması*" adlanan dördüncü yarımfəsdə göstərildiyi kimi,

əgər oğlan və qızlarda müasir ailənin idealı formalaşdırılmayıbsa, onlar nə üçün nikaha girdikləri barədə aydın təsəvvürə malik deyillərsə, ailədən nə gözlədiklərini, ər-arvadlığın, valideynlərin onların üzərinə hansı vəzifələri qoyduğunu bilmirlərsə, cütlüyü nikaha hazır hesab etmək olmaz. Böyük məktəb yaşlı şagirdlərin ailə həyatına hazırlanması üzrə işin əsasında onların mənəvi-ruhi aləminin inkişaf etdirilməsi, məhəbbət, nikah və ailə münasibətlərinə ciddi və məsuliyyətlə yanaşmaları ideyası dayanmalıdır.

Uşaqlıq illərindən hər bir insana şəxsi xoşbəxtlik barədə düzgün təsəvvürün aşılanması çox mühümdür. Həmin xoşbəxtlik Vətənin tərəqqisindən, inkişafından, dünya dövlətləri arasında Azərbaycanımızın özünə layiqli yer tutmasından, ailədə səmimiyyət, mehribanlıq, qarşılıqlı anlama və uşaqların olması arzusundan, insanlara münasibətdə xeyirxah, ədalətli, humanist, obyektiv olmaq, əməyə bağlanmaq və s.-dən ayrı nəzərdən keçirilə bilməz.

Şagirdlərin psixoloji və praktik cəhətdən ailə həyatına hazırlanmaları vəzifəsinə daxildir: 1) nikaha daxil olma motivləri, ailə həyatına ciddi və məsuliyyətli münasibət; ərin seçilməsi, xoşbəxtlik və ailə haqqında təsəvvür; şəxsi və ictimai maraqlar; ailə münasibətlərinin mənəvi-psixoloji tərəflərinin aydınlaşdırılması. Bu vəzifələr səciyyəvi cinsi xüsusiyyətləri nəzərə almaq qabiliyyətinin tərbiyə olunması tələbatını meydana çıxarır, həmçinin əks cins nümayəndələrinin fiziki və psixoloji xarakterinin xüsusiyyətlərini; nəzakətlilik, həssaslıq, sədaqət, sadiqlik, ailə və sevimli insanlar qarşısında borc hissi, ailə münasibətlərini tənzimləmək bacarığı, ailədə sağlam mənəvi və psixoloji iqlimi bərqərar etmək; dözümlülük nümayiş etdirmək, ədalətlilik, əhəmiyyətsiz nöqsanlara və səhvlərə münasibətdə müəyyən qədər etinasızlıq, çətinliklərə tablaşmaq, güzəştə getmək bacarığı, prinsipiallıq kimi keyfiyyətlərin formalaşdırılmasını labüd edir;

Bu vəzifələrin həllinin vacibliyi ailədə nikah-ailə münasibətlərinin sabitləşdirilməsi amili kimi mənəvi dəyərin daim artan əhəmiyyətindən irəli gəlir.

2) Uşaqların tərbiyəsi üzrə pedaqoji biliklərin, bacarıq və vərdişlərin formalaşdırılması. Xüsusən ailədə qızların tərbiyəsi ilə ciddi məşğul olmalı, onlara yüksək mənəvi keyfiyyətlər aşılamalı, bir növ ər evində, bəzən hətta qayınata, qayınana, baldız, qayın əhatəsində yaşamağı, onlarla qarşılıqlı münasibətləri düzgün qurmağı öyrətmək lazımdır;

3) Alimlərin fikrincə, cinsi savadsızlıq ailənin dağıdıcı qüvvəsidir, xüsusən qadınların əsəb sarsıntısı və xəstəliyinin səbəbidir. Mütəxəssislər bu qənaətdədirlər ki, cinsi maarifləndirmə ailə faciələrinin səbəblərini azaltmağa kömək göstərir;

Cinsi maariflənmə lazımdır. Nikaha daxilolma motivləri ər və arvadın münasibətlərinə, ailə həyatının xarakterinə son dərəcə güclü təsir edir. Bunu dərk etmək ailə həyatına etik-psixoloji hazırlığın mühüm göstəricisidir.

Ailənin psixoloji iqlimi ilə bağlı prof. A.N. Abbasovun fikirləri önəmlidir. Professor "Milli əxlaq və ailə etikası" dərsliyində yazır: "Evdə psixoloji iqlimin hökm sürməsi üçün ailə üzvləri arasında psixoloji uyuşma mövcud olmalıdır. Kişi bir ailədə, qadın başqa ailədə böyüyüb. Onlara ata evində verilən tərbiyə, göstərilən pedaqoji təsirlər müxtəlif ola bilər".

"*Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə tibbi və gigiyenik baxımdan hazırlanması*" adlanan bu yarımfəsildə aşağıdakı məsələlərə diqqət yetirilir. Hazırda nikah ittifaqına girən şəxslərdən – oğlanlardan və qızlardan (kişi və qadınlardan) həm də tibbi arayış tələb olunur. Bu, ailə üzvlərinin sağlamlığının mühafizəsi məqsədini daşıyır. Nikaha girənlərin sağlam olması ona görə lazımdır ki, əvvəla, müəyyən xəstəliyə, xüsusən dəri-zöhrəvi xəstəliklərə, QİÇS-ə yoluxan tərəflər bir-birini xəstəliyə yoluxdura bilərlər. İkinci, xəstəliyin olması doğulacaq uşaqların sağlamlığını təhlükə altında qoyur. Ona görə də ailədə və məktəbdə ilk gənclik yaşında olan şəxslərlə, daha doğrusu X-XI sinif şagirdlərlə aparılan işlər zamanı onlar Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13-cü maddəsi ilə tanış edilmələri son dərəcə vacibdir. Bu maddə "Nikaha daxil olan şəxslərin tibbi müayinəsi" adlanır. Həmin maddənin ayrı-ayrı bəndlərində deyilir: " Nikaha daxil olan şəxslərin tibbi müayinəsi, habelə tibbi-genetik, *tibbi-psixoloji* və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların razılığı ilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir".

Ailənin hər bir üzvü - həm ər-arvad, həm də uşaqlar və b. gigiyena mədəniyyətə yiyələnməli, ən vacib tibbi bilik və məlumatlarla əhatə olunmalıdır. Ümumtəhsil məktəblərinin IX siniflərində Reproduktiv sağlamlığın əsasları fənni tədris edilir. Həmin fənn zərurətdən tədris planına salınmışdır. Ailə üzvləri, o cümlədən yuxarı sinif şagirdləri sağam həyat tərzi keçirməli, öz sağlamlıqları, orqanizmin möhkəmləndirilməsi qayğısına qalmalıdırlar.

Sağlamlıq düzgün qidalanmadan xeyli dərəcədə asılı olur. Qidalanma normal olmadıqda, mədəni yükləyib az hərəkət etdikdə, ailə üzvlərində, o cümlədən yuxarı sinif şagirdlərində piylənmə baş verir.

Dissertasiyanın ikinci fəsli "**Təlim prosesində və sinifdənxaric tədbirlər zamanı yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması**" adlanır. Bu fəsil də 5 yarımfəsli əhatə edir. Birinci yarımfəsildə "*X-XI sinif proqramlarının və dərsliklərinin şagirdlərin nikah-ailə münasibətlərinə hazırlanması baxımından imkanları*" araşdırılır. Hər bir mövzu müəyyən biliklər verməklə yanaşı eyni zamanda böyük məktəb yaşlı şagirdin mənəvi keyfiyyətlərinin inkişafına doğru istiqamətlənir, əxlaqının saflaşdırılması (gələcək həyat yoldaşını düzgün seçmək, məhəbbətdə sabitqədəm olmaq, evlənərkən hissi deyil, ağlı əsas götürmək, ağlın məsləhət bildiyi yolu seçmək, yaxşı ər, yaxşı arvad olmaq, nümunəvi valideyn olmaq, nikaha və ailəyə, ailə münasibətlərinə ciddi yanaşmaq, ailə üzvləri arasında qarşılıqlı hörmət, qarşılıqlı anlama, qarşılıqlı güzəştəgetmə, ailə həyatında tolerant, dözümlü, hövsələli olmaq, yersiz özündən çıxmamaq və s.) üçün material verir. Bu baxımdan ayrı-ayrı fənlər, xüsusən yuxarı siniflərdə ədəbiyyat, insan və cəmiyyət, Azərbaycan tarixi fənlərinin imkanları genişdir.

X-XI sinif şagirdlərinin müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsinə, məhəbbət, nikah və ailə münasibətlərinə hazırlanması baxımından ədəbiyyat və insan və cəmiyyət fənlərinin imkanlarından yuxarı sinif şagirdlərinin nikah və ailə münasibətlərinə hazırlanması baxımdan istifadə etmək mümkündür

Birinci fəslin birinci yarımfəslində eyni zamanda X-XI siniflərin İnsan və cəmiyyət fənn proqramlarının və dərsliklərinin şagirdlərin nikah-ailə münasibətlərinə hazırlanması baxımından imkanları təhlil olunur.

Şagirdlərin müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsinə uğurla hazırlanmaları baxımından gender problemləri ilə bağlı onlarla söhbətlərin aparılması faydalıdır. X sinfin İnsan və cəmiyyət fənn proqramında bu məsələ özünə yer almışdır.

"Qadın hüquqları", "İnsan ləyaqətinin müdafiəsi üzrə müxtəlif sistemlər" və "Azərbaycanda insan və vətəndaşın hüquq və azadlıqları" mövzularının öyrənilməsi tədqiq etdiyimiz problem baxımından ona görə əhəmiyyətlidir ki, ailə həyatında da, müstəqil həyatda da, ümumiyyətlə hər bir yerdə və hər zaman insan ləyaqətinin müdafiə olunması vacibdir. Hazırda və ya gələcəkdə ailə qurmağa, nikah ittifaqına girməyə hazırlaşan

hər bir şəxs möhkəm əmin olmalıdır ki, onun şərəf və ləyaqəti qanunla müdafiə edilir. Azərbaycan Respublikası Konstitusiyasında bu məsələ ayrıca maddə kimi özünə yer almışdır.

"Reproduktiv sağlamlıq məsələləri" mövzusunun tədrisi imkan verəcəkdir ki, şagirdlər fiziki, əqli və sosial əhval-ruhiyyələrinin yaxşı olması qayğısına qalsınlar.

II fəslin üçüncü yarımfəsli belə adlanır: *"Sinifdənxaric tədbirlər zamanı yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması imkanları*". Bu yarımfəsildə diqqətə aşağıdakı məsələlər çatdırılır. Sinifdənxaric iş ümumtəhsil məktəbinin, kollec və texniki peşə məktəblərinin, auditoriyadankənar iş isə institut və universitetlərinin, tədris akademiyalarının pedaqoji fəaliyyətinin ayrılmaz tərkib hissəsidir.

Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə, müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlanmalarında təlim prosesi ilə yanaşı sinifdənxaric tədbirlər əhəmiyyətli rol oynayır. Eksperimentə cəlb edilmiş məktəblərdə dissertasiyada nəzərdən keçirilən problem baxımından sinifdənxaric işin kollektiv, qrup halında və fərdi formalarından istifadə edilirdi. Sinifdənxaric işin söhbət, disput, müzakirə, yarış, müsabiqə formalarından geniş istifadə edilirdi.

"Nikaha girənlər arasında yaş fərqi" mövzusunda söhbət də yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanmasına öz köməyini göstərmişdir. Yuxarı sinif şagirdlərinin müstəqil fikir söyləmələrinə imkan verilmişdir.

II fəslin "*Ailədə yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması"* adlanan dördüncü yarımfəsli aşağıdakı məsələləri əhatə edir. Ailə ilk tərbiyə ocağı, valideynləri isə, ilk tərbiyəçilərdir. Söhbət şagirdlərin ailə həyatına hazırlanmasından gedən təqdirdə ailənin rolunu qeyd etməmək, ata-anaların bu sahədəki zəhmətini yada salmamaq olmaz. Etnopedaqogikamız, xalq pedaqogikamız böyüyən nəslin müstəqil həyata hazırlanması baxımından zəngin material verir. "Kitabi-Dədə Qorqud" eposunda deyildiyi kimi: "Qız anadan görməyincə öyüd almaz, Oğul atadan görməyincə süfrə çəkməz".

Valideynlər öz uşaqlarını sevməklə yanaşı ailədə elə tərbiyə mühiti yaratmalıdırlar ki, uşaqların da onlara məhəbbəti olsun. Bu, yuxarı sinif şagirdlərinə, onların gələcək müstəqil ailə həyatları üçün çox lazımdır. Oğlanın gələcəkdə necə bir kişi, necə bir ər, necə bir ata; qızın isə gələcəkdə necə bir qadın, necə bir arvad, necə bir ana olacağını xeyli

dərəcədə öz valideynlərindən aldığı ailə dərsləri, onların nümunəsi, hərəkətləri, qarşılıqlı münasibətləri, uşaqlarına, qonşulara, qohumlara yanaşma tərzləri, mədəniyyətləri, etikaları, rəftar və davranışları müəyyənləşdirir. Məktəb də qazanılanları təkmilləşdirir, inkişaf etdirir. Ona görə də övladları ilə söhbətləri zamanı ailə həyatı üçün faydalı məsləhətlər verməlidirlər. Valideynlər övladlarını nikah-ailə münasibətlərinə, gələcək müstəqil ailə həyatına lazımınca hazırlamaq istəyirlərsə, özləri maariflənməlidirlər, müəyyən biliyə malik olmalı, yaxşı təcrübələrini onlara ötürməlidirlər. Oğlanların və qızların cinsi yetişkənliyi barədə məlumatları olmalıdır ki, cinsi tərbiyə üzrə iş apara bilsinlər.

Nikah-ailə münasibətlərinə hazırlıq işində ər və arvadın qarşılıqlı münasibətlərinin özəlliklərinin diqqət mərkəzinə gətirilməsi müstəsna dərəcədə önəmlidir. Nəsirəddin Tusinin “Əxlaqı-Nasiri” əsərinin fəsillərindən biri “Ailə dolandırmaq və evdarlıq qaydaları haqqındadır”. Valideynlərin və şagirdlərin həmin əsərlə tanış olmaları məsləhət bilinir.

“Kitabi-Dədə Qorqud” dastanında deyilir: “Öyünərsə, ər öyünsün – aslandır! Lovğalanmaq  arvad üçün nöqsandır! Öyünməklə arvaddan kişi çıxmaz!”.

Milli mentalitetimiz də tələb edir ki, ailədə kişinin – kişi, arvadın – arvad yeri var. Liderliyin ağıllı kişiyə verilməsi, onu ailənin başçısı kimi hörmətləndirmək yalnız ailənin xeyrinə olardı. Analar qızlarına bunu başa salmalıdırlar.

Valideynlər uğurlu nikahın, xoşbəxt ailənin sirlərini öz övladlarına başa salmaqla yanaşı, ailə mübahisələri, ailə ixtilafları, gəlin-qayınana, gəlin-baldız münasibətlərinə də diqqəti yönəltməlidirlər. Eksperimentə cəlb edilmiş məktəblərinin şagirdlərinin ailələrində bu cəhətə fikir verirdilər. Öz oğul və qızlarını başa salırdılar ki, şirin dil, yaxşı münasibət, ürəkaçıqlığı, kindən uzaq olmaq, hər şeyə görə küsməmək, dözüm, tolerantlıq, başlıcası isə güzəştə getməyi bacarmaq bir çox problemləri aradan qaldırır.

Fəslin beşinci yarımfəsli  “*Eksperimentin təşkili, aparılması və nəticələri*” adlanır. Şagirdlərin nikah-ailə münasibətlərinə hazırlanması sahəsində səmərəliliyin necə təmin edildiyini öyrənmək üçün müşahidə və söhbətlərdən, kütləvi sorğudan, dərslərin dinlənilməsindən, təhlil və tərkibdən, məktəblilərin yaradıcılıq məhsullarının öyrənilməsindən istifadə olunmuşdur.

Tədqiqatlardan görünür ki, yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə respublikanın qabaqcıl məktəblərində məqsədyönlü və sistemli iş aparılır. Müəllimlər təlim prosesinin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici imkanlarından faydalanaraq, pedaqoji texnologiyalardan və innovasiyalardan, fəal təlim metodlardan istifadə edərək, sinifdənxaric tədbirlərdə məktəblilərin müstəqil ailə həyatına hazırlanmasının zəruriliyini nəzərə alaraq, yüksək göstəricilər əldə edirlər.

X-XI sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması sahəsində vəziyyəti öyrənmək üçün müəyyənedici eksperimentdən istifadə edildi. Çatışmayan cəhətlər, müsbət və qüsurlu hallar aşkara çıxarıldı. Eksperimentin müəyyənləşdirici mərhələsinin nəticələrinə əsasən eksperimentin ikinci (öyrədici) mərhələsi üzrə görüləcək işlər planlaşdırıldı, eksperimental və kontrol siniflər müəyyənləşdirildi. Ədəbiyyat, İnsan və cəmiyyət fənləri üzrə mövzular eksperimentin əsas materialları kimi seçildi. Eksperiment zamanı fənn müəllimlərinin (həm eksperimental, həm də kontrol), siniflərin və şagirdlərin bərabər səviyyələri olmaları diqqət mərkəzində dayandı. Müəllimlərin iş stajının da təxminən eyni, yaxud bir qədər fərqli olması təmin edildi.

Eksperimental siniflərdə yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə fasiləsiz, məqsədyönlü və sistemli işlər aparılırdı. Eksperimental siniflərin müəllimləri, onlarla sinifdənxaric tədbirləri həyata keçirən məktəb ictimai təşkilatlarının nümayəndələri, tərbiyə işləri üzrə direktor müavinləri, kitabxanaçılar, məktəb psixoloqları ilə məsləhətləşmələr aparılırdı.

Belə əlbir iş sayəsində eksperimental sinif şagirdlərində məhəbbət, nikah və ailəyə ciddi münasibətin yaranmasına, nəticədə məktəblilərin müstəqil ailə həyatına hazırlanmalarına böyük kömək göstərirdi. Vaxtaşırı dərslər, sinifdənxaric tədbirlər müşahidə olunur, məktəbin pedaqoji kollektivi və şagirdlərlə söhbətlər edilir, müsahibə və sorğular keçirilirdi. İşin bu şəkildə təşkili səmərəli nəticələr verirdi.

Fənn müəllimləri ilə sorğu keçirildi. Məqsəd onların şagirdlərin gələcək müstəqil ailə həyatına hazırlanması məsələsinə münasibətini öyrənməkdən ibarət idi (*müəllimlərə verilən suallarla dissertasiyadan tanış olmaq mümkündür*).

Eksperimentin birinci müəyyənləşdirici mərhələsində şagirdlərlə də sorğu aparılmışdır.

Eksperimentin müəyyənedici mərhələsinin yekunları eksperimentin öyrədici mərhələsinə, öyrədici mərhələnin yekunları isə, eksperimentin yoxlayıcı mərhələsinə keçməyə imkan vermişdir. Aşağıdakı cədvəl eksperimentə cəlb edilmiş siniflərin göstəriciləri barədə nikbin təsəvvür yaradır:

**Eksperimental və kontrol siniflərdə yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması səviyyələrini bildirən göstəricilər.**

Cədvəl 2.3.

| Sıra № | Bizi maraqlandıran məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | yüksək (nəfərlə) | | orta (nəfərlə) | | aşağı (nəfərlə) | |
| | | eks. | kont. | eks. | kont. | eks. | kont. |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1. | Ailənin mənəvi əsasını nə təşkil edir? | 99 | 62 | 28 | 43 | 3 | 26 |
| 2. | Ailənin hüquqi əsasını nə təşkil edir? | 98 | 64 | 27 | 37 | 5 | 30 |
| 3. | Necə bir qızla ailə qurmaq olar? | 82 | 61 | 39 | 42 | 9 | 28 |
| 4. | Necə bir oğlana ərə getmək olar? | 81 | 55 | 42 | 45 | 7 | 31 |
| 5. | Ölkəmizdə nikah və ailə münasibətlərini hansı məcəllə tənzim edir? | 92 | 60 | 34 | 41 | 4 | 30 |
| 6. | Ölkəmizdə hansı yaş nikah yaşı kimi müəyyənləşdirilib? | 81 | 51 | 49 | 45 | - | 35 |
| 7. | Evlənənlər arasında yaş fərqi necə olmalıdır? | 90 | 58 | 34 | 46 | 6 | 27 |
| 8. | Ailədə neçə uşağın olması məsləhətdir? | 82 | 54 | 39 | 45 | 9 | 32 |
| 9. | Gənc ailənin valideynləri ilə, yoxsa ayrıca yaşaması məqsədəuyğundur? | 80 | 58 | 40 | 50 | 10 | 23 |
| 10. | Ailə Məcəlləsində uşaqları | 81 | 64 | 38 | 36 | 11 | 31 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | saxlamaqla bağlı valideynlərə hansı tələblər verilir? | | | | | | |
| 11. | Ailə Məcəlləsində ər-arvadın hüquqları barədə nə deyilir? | 87 | 53 | 35 | 45 | 8 | 33 |
| 12. | Uşaqların valideynləri saxlaması ilə bağlı nə deyə bilərsiniz? | 89 | 51 | 29 | 45 | 12 | 35 |
| 13. | Ailə məhəbbət əsasında qurulmalıdır, yoxsa mənafe əsasında? | 93 | 59 | 31 | 44 | 6 | 28 |
| 14. | Nikahın bağlanmasına hansı hallar mane olur? | 98 | 56 | 26 | 45 | 6 | 30 |
| 15. | Ailə münasibətlərinin hüquqi tənzimi nəyi nəzərdə tutur? | 88 | 57 | 30 | 43 | 12 | 31 |
| 16. | "Ailə Məcəlləsi"nin vəzifələri nədən ibarətdir? | 87 | 52 | 32 | 41 | 11 | 38 |

Qeyd: *Sorğuda eksperimental siniflərdən 130, kontrol siniflərdən 131 nəfər şagird iştirak etmişdir.*

Cədvəl 2.3 nəticələr barədə tam təsəvvür yaradır.

Cədvəldən bu suala verilən cavabların səviyyəsini aydın göstərir. 11-ci suala ("Ailə Məcəlləsində ər-arvadın hüquqları barədə nə deyilir?") eksperimental siniflərin sorğuya cəlb edilmiş 130 şagirdin 87 nəfəri tam və düzgün; 35 nəfəri – natamam; kontrol siniflərin sorğuya cəlb edilmiş 131 şagirdin 53 nəfəri qənaətləndirici; 45 nəfəri qeyri-tam cavab vermişdir. Eksperimental siniflərin 8, kontrol siniflərin 33 şagirdi sualı cavablandıra bilməmişdir.

Eksperimental və kontrol sinif şagirdləri eyni zamanda aşağıdakı sorğuda da iştirak etdilər.

**Eksperimental və kontrol siniflərdə yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması səviyyələrini bildirən göstəricilər.**

Cədvəl 2.4.

| Sıra № | Bizi maraqlandıran məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | yüksək (nəfərlə) | | orta (nəfərlə) | | aşağı (nəfərlə) | |
| | | eks. | kont. | eks. | kont. | eks. | kont. |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1. | Ailənin psixoloji əsasları barədə nə deyə bilərsiniz? | 89 | 60 | 40 | 45 | 5 | 30 |
| 2. | Ailənin funksiyaları hansılardır? | 96 | 67 | 34 | 43 | 4 | 25 |
| 3. | Ailə münasibətlərinin hüquqi tənzimi nəyi nəzərdə tutur? | 94 | 81 | 33 | 33 | 7 | 21 |
| 4. | Nikah kəsdirilərkən tərəflərdən tibbi arayışın tələb olunmasına necə baxırsınız? | 91 | 73 | 37 | 38 | 6 | 24 |
| 5. | Nikaha girmək üçün hansı şərtlər gözlənilməlidir? | 85 | 54 | 41 | 44 | 8 | 37 |
| 6. | Sizcə, sevənlər və ər-arvad arasında qısqanclıq lazımdırmı? | 88 | 62 | 38 | 34 | 8 | 39 |
| 7. | Ailə ixtilafları barədə nə deyə bilərsiniz? | 97 | 71 | 31 | 37 | 6 | 27 |
| 8. | Gəlin-qayınana münasibətləri: kim haqlıdır? | 95 | 76 | 35 | 33 | 4 | 26 |
| 9. | Ailədə uşaqların tərbiyəsi ilə kim məşğul olmalıdır? | 92 | 72 | 37 | 34 | 5 | 29 |
| 10. | Ana özünü uşağın sağlam doğulmasına necə hazırlamalıdır? | 98 | 74 | 29 | 36 | 7 | 25 |
| 11. | Ailənin asudə vaxtı və istirahəti: bunu necə başa düşürsünüz? | 91 | 69 | 35 | 45 | 8 | 21 |
| 12. | Sevənlərin davranışına hansı tələblər verilir? | 97 | 78 | 32 | 32 | 5 | 25 |
| 13. | Respublikamızda ailənin, qadın və uşaqların hüquqlarını müdafiə edən hansı orqan var? | 91 | 74 | 37 | 37 | 6 | 24 |
| 14. | Nikah hansı orqanlarda həyata keçirilir? | 101 | 81 | 33 | 26 | - | 28 |
| 15. | Ailənin möhkəmləndirilməsi məqsədilə hansı dövlət sənədləri mövcuddur? | 95 | 78 | 35 | 42 | 4 | 15 |
| 16. | Ailə dedikdə nə başa düşülməlidir? | 102 | 81 | 30 | 32 | 2 | 22 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 17. | Nikah nə deməkdir? | 114 | 84 | 17 | 23 | 3 | 28 |
| 18. | Məhəbbət nədir? | 102 | 80 | 31 | 33 | 1 | 22 |
| 19. | Ailədə uşaqların hüquqları hansılardır? | 96 | 71 | 33 | 40 | 5 | 24 |

*Qeyd*: Sorğuda eksperimental siniflərdən 134, kontrol siniflərdən 135 nəfər şagird iştirak etmişdir.

Cədvəllə tanışlıq eksperimental və kontrol siniflərin göstəriciləri barədə aydın təsəvvür yaradır.

Göründüyü kimi, eksperimental sinif müəllimləri ilə aparılmış sistemli, məqsədyönlü iş öz səmərəsini vermiş, nəticə kontrol sinif müəllimləri ilə müqayisədə xeyli artmışdır.

Eksperimental siniflərdən olan şagirdlər dərslərdə, sinifdənxaric tədbirlərdə məhəbbət, nikah, nikahın bağlanması şərtləri, ailə, ailə münasibətləri, sevənlərin davranış mədəniyyəti, ər-arvadın hüquq və vəzifələri, valideynlərin uşaqları, uşaqların valideynləri saxlamaq vəzifələri, qayınana-gəlin münasibətləri, ailənin mənəvi və psixoloji amili, boşanma və s. haqqında zəruri məlumatlara yiyələndiklərindən sorğular zamanı həmin məsələləri lazımi səviyyədə aydınlaşdıra bilmişlər.

Aparılmış eksperimentdən göründüyü kimi, irəli sürülmüş fərziyyə doğru olmuş, eksperimental sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması səviyyəsi son dərəcə yüksək olmuşdur. Məqsədyönlü, sistemli və fasiləsiz işlər şagirdlərin gələcək müstəqil ailə həyatına uğurla hazırlanmasına şərait yaradır.

Tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə əsas vermişdir:

1. X-XI sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması prosesi şəxsiyyətin sosial təşəkkülünün bir mərhələsidir. Bu, təlim prosesində ayrı-ayrı fənlərin müvafiq mövzularının tədrisi zamanı və sinifdənxaric işin müxtəlif formaları üzrə təşkil olunan tədbirlərin köməyilə həyata keçirilir.

2. Təlim prosesi və sinifdənxaric tədbirlər şagirdlərin nikah-ailə münasibətlərinə hazırlanmasının başlıca formaları kimi özünü göstərir. Məktəblilərin nikah-ailə münasibətlərinə hazırlanmasında bir sıra fənlərin, o cümlədən Azərbaycan tarixi, coğrafiya, Azərbaycan Respublikasının Konstitusiyası, texnologiya, fiziki tərbiyə, biologiya və s. fənlərinin imkanları genişdir. Bu fənlərin bəziləri (məsələn, Azərbaycan Respublikasının Konstitusiyası) X-XI siniflərdə keçilmir. Odur ki, biz ədəbiyyat və İnsan və cəmiyyət fənlərinin materiallarına əsaslandıq.

3. Ailə həyatının əsaslarının mənimsənilməsində, ailəyə emosional yönümlü münasibətin formalaşdırılmasında, xoşbəxt ailənin qurulması üçün vacib olan kommunikativ, təşkilatçılıq, təsərrüfat-məişət, pedaqoji bacarıq və vərdişlərin təkmilləşdirilməsində sinifdənxaric iş əhəmiyyətli rol oynayır. Söhbətlər, müzakirə və disputlar, fakültativlər, görüşlər, dərnəklər, ekskursiyalar, olimpiadalar, axşamlar, baxışlar, müsabiqələr, yarışlar, sərgilər, bayramlar, divar qəzetləri və s. deyilənlərə nümunədir.

4. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə uğurla və yüksək səviyyədə hazırlanması təbiətə müvafiqlik, mədəniyyətə müvafiqlik, təlim, tərbiyə və inkişafın inteqrasiyası, tamlıq, yönümlülük, fərdilik, nəzəri biliklərin və praktik fəaliyyətin qarşılıqlı əlaqəsi, ailə üzvlərinin qarşılıqlı münasibətlərinin mikroiqliminin nəzərə alınması şəraitində reallaşır.

5. Aparılmış nəzəri tədqiqat və təcrübi-eksperimental iş irəli sürdüyümüz fərziyyənin doğruluğunu sübuta yetirdi.

6. Nikah-ailə münasibətlərinə hazırlıq üzrə işin səmərəliliyi eyni zamanda şagirdlərdə nikaha hazırlığın formalaşdırılmasını, sosial, psixoloji və cinsi yetişməsi dövründə oğlanlar və qızlarla məqsədyönlü işin həyata keçirilməsini yüksək səviyyədə qura bilmələri üçün müəllimlərin və valideynlərin psixoloji-pedaqoji hazırlığını necə təmin etməkdən çox asılıdır.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

1. Hazırda ümumi təhsil məktəbində elə bir fənn yoxdur ki, bilavasitə məhəbbət, nikah, ailə münasibətləri ilə bağlı şagirdlərə sistemli bilik, həyati bacarıq və vərdişlər formalaşdırsın, onları gələcək müstəqil ailə həyatın hazırlasın.

2. Ümumtəhsil məktəblərinin X-XI siniflərində tədris olunan İnsan və cəmiyyət fənninin məzmununa məhəbbət, nikah və ailə, ailə münasibətlərinə dair məsələlərin daxil edilməsi məsləhətdir.

3. Sinifdənxaric tədbirlər planlaşdırılarkən məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına, nikah-ailə münasibətlərinə hazırlanmasına xidmət edə biləcək tədbirlərin müntəzəm şəkildə keçirilməsi faydalı olardı.

4. Yuxarı sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına, nikah-ailə münasibətlərinə hazırlanması sahəsində məktəbdənkənar tədbirlərin təşkilində məktəb və ailəni məktəbdənkənar müəssisələrini imkanlarından faydalanması məsləhət bilinir.

5. Yuxarı sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına, nikah-ailə münasibətlərinə hazırlanması üzrə işinin müvəffəqiyyəti ailəyə, ailənin inkişaf etdirilməsi və möhkəmləndirilməsi baxımından qəbul olunmuş dövlət sənədləri və "Azərbaycan Respublikasının Ailə Məcəlləsi" ilə həm müəllimlərin, həm valideynlərin və şagirdlərin yaxından tanış olmaları vacibdir.

6. Ümumtəhsil məktəblərində sinifdənxaric işlər üzrə tədbirləri əhatə edən, yeni pedaqoji təfəkkürün tələblərinə cavab verən proqramın tərtibi, həmin proqramda I-XI sinif şagirdlərinin gələcək müstəqil ailə həyatına hazırlanması ilə bağlı zəruri məsələlərin nəzərdə tutulması məqsədəuyğundur.

***İddiaçı dissertasiyanın məzmununu, əsas elmi ideyalarını və alınan nəticələri özündə əks etdirən aşağıdakı əsərlərin çapına nail olmuşdur:***

*İddiaçı dissertasiyanın məzmununu, əsas elmi ideyalarını və alınan nəticələri özündə əks etdirən aşağıdakı əsərlərin çapına nail olmuşdur:*

1. Böyüyən nəslin ailə həyatına hazırlığı haqqında / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri 6 dekabr 2013-cü il. s. 164-165

2. Yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanmalari üzrə işdə mühüm məsələ // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2013, № 4, s. 78-83

3. Yuxarı sinif şagirdi şəxsiyyətinin formalaşdırılmasında onun nikah-ailə münasibətlərinə hazırlanmasının rolu / "Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri 16-17 dekabr 2014-cü il, s. 248-249

4. Ədəbiyyat dərslərində yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2015, № 3, s. 61-65

5. Основные направления работы по подготовке к семейным отношениям и браку учеников старших классов // Кыргыз Билим Академиясынын Кабарлары, 2015, № 1, с. 105-108

6. Nazilə Şahbazova-Eminbəyli. X-XI siniflərin ədəbiyyat proqramlarının və dərsliklərinin şagirdlərin nikah-ailə münasibətlərinə

hazırlanması baxımından imkanları // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2015, № 3, s. 97-101

7. X-XI siniflərin İnsan və cəmiyyət fənn proqramlarının və dərsliklərinin şagirdlərin nikah-ailə münasibətlərinə hazırlanması baxımından imkanları // Naxçıvan Müəllimlər İnstitutunun Elmi xəbərləri, 2015, № 3, s. 37-42

**Назила Шахбаз кызы Шахбазова-Эминбейли**
**Педагогические основы подготовки старшеклассников к брачно-семейным отношениям**


## РЕЗЮМЕ

Представленная на защиту диссертационная работа по проблеме подготовки старшеклассников к браку и семейным отношениям состоит из 10 параграфов с охватом 2 глав, результатов и списка литератур. Во введение актуальность темы была обоснованной. В первой главе, озаглавленной «Теоретическая основа подготовки брачно-брачных отношений учеников старшеклассников», была подчеркнута важность подготовки учеников старших классов к вступлению в брак и семейным отношениям.

Во второй части юридическое образование старшеклассников с юридической точки зрения было научно-педагогически обоснованным. В третьем, четвертом и пятом частях этой главы были проанализированы моральные, психологические, медицинские и гигиенические аспекты подготовки супружеских отношений. В конце главы такая сбережения порождается тем, что важность обучения в педагогическом аспекте подготовки супружеских отношений старшеклассников велик.

Вторая глава диссертации озаглавлена «Практические вопросы подготовки брачных отношений для старшеклассников». В первой половине этой главы, состоящей из пяти частей, отражается анализ предметных дисциплин в контексте подготовки отношений брака и семьи учеников. Во второй части этой главы процесс обучения был обобщен и исследован, как учащиеся старшего возраста готовятся к семейным и семейным отношениям. В третем части второй главы в процессе занятий была разработана система работы по подготовке семейных отношений старшеклассников. В четвертом части сущность, содержание, цели и задачи подготовки старшеклассников к бракам были истолкованы научно в семьях. В последней части второй главы были отражены результаты экспериментального исследования проблемы.

В конце диссертации приводятся результаты и рекомендации. Диссертация ззаканчивается списком литературы.

**Nazila Shahbazova-Eminbayli**

**Pedagogical principles of preparation of the pupils of higher classes for the marriage relations**

## SUMMARY

The thesis, devoted to the problem of the preparation of marriage relations of the pupils of higher classes, consists of the introduction, 2 chapters, consisted of two sub-chapters, conclusion and list of the literature. The actuality of the topic is grounded in the introduction. The importance of preparation of the pupils of the higher classes for the marriage relations is stated I subchapter of I chapter "Theoretical principles of preparation of the pupils of higher classes for marriage relations".

"The legal preparation of the pupils of higher classes for marriage relations is based in terms of science and pedagogy" is stated in second subchapter. Moral, psychological, medical and hygienic aspects of preparation of the pupils of the higher classes for the marriage relations are analyzed in third, fourth and fifth subchapters of this chapter. It is concluded that the pedagogical aspect of study of preparation of the pupils of the higher classes for the marriage relations is important.

The second chapter of the thesis is called "The practical issues of preparation of the pupils of the higher classes for the marriage relations". This chapter consists of five subchapters. The analysis of preparation of the pupils of the discipline classes of the secondary school for the marriage-family relations is stated in I subchapter of this chapter. The possibilities and implementation ways of preparation of the pupils of the higher classes for the marriage relations are studied and summarized. The system of preparation of the pupils of the higher classes for the marriage relations while extra class measures is stated in III subchapter of II chapter. The essence, content, target and duties of preparation of the pupils of the higher classes for the marriage relations are summarized in terms of science. The results of the experimental work, carried out regarding with this problem, are stated at the final subchapter of II chapter.

General results and proposals are provided at the end of the thesis. Thesis ends with the list of the literature.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**НАЗИЛА ШАХБАЗ КЫЗЫ ШАХБАЗОВА-ЭМИНБЕЙЛИ**

# ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ПОДГОТОВКИ СТАРШЕКЛАССНИКОВ К БРАЧНО-СЕМЕЙНЫМ ОТНОШЕНИЯМ

**5804.01- Общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора**
**философии по педагогике**

**БАКУ - 2018**